



# V İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi keçirilib

Dünən Türkiyənin Konya şəhərindəki 15 İyul Stadionunda V İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi keçirilib.

Tədbirdə Türkiyənin gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu və İslam Həmrəyliyi İdman Federasiyasının (ISSF) prezidenti Abdülaziz bin Türki el Faysal el-Suud iştirak ediblər.

Əvvəlcə Konyanın tarixi, mədəniyyəti və turizm potensialından bəhs edən videoçarx nümayiş etdirilib.

Sonra Türkiyənin Dövlət Bayrağı qaldırılıb və Dövlət Himni - "İstiqlal Marşı" səsləndirilib.

Daha sonra oyunlarda iştirak edən 56 ölkənin bayrağı səhnəyə gətirilib.

Yarışların iştirakçıları, o cümlədən Azərbaycan idmançıları stadiona daxil olaraq paradda iştirak ediblər. Bağlanışda Azərbaycan nümayəndə heyətinin bayraqdarı İslam Həmrəyliyi Oyunlarının üçqat mükafatçısı - basketbol 3x3 milli komandasının üzvü Zaur Paşayev olub.

Daha sonra oyunların könüllüləri səhnəyə dəvət edilərək, onlara təşəkkür ifadə olunub.

Türkiyənin gənclər və idman naziri, "Konya-2021"in Hazırlıq və Təşkilat Komitəsinin sədri Mehmet Kasapoğlu çıxış edərək bildirib ki, bu oyunlarda uduzan olmayıb, qazanan isə birlik-bərabərlik, dostluq-qardaşlıq olub.

Yarışın unudulmaz anlarla yadda qaldığını söyləyən İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Abdülaziz bin Türki el Faysal el-Suud idmançıları dəstəkləyən hər kəsə, eyni zamanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür edib. O, dünyaya "Həmrəylik adımız, sülh dilimiz, idman meydanlarında şərəfli rəqabət isə yolumuzdur" mesajını verən idmançılara minnətdarlığını bildirib.

Sonra V İslam Həmrəyliyi Oyunlarından bəhs edən videoçarx nümayiş etdirilib. Bağlanış mərasimi atəşfəşanlıq və müğənni Kubatın konserti ilə bitib.

Mərasimə Azərbaycandan rəsmi şəxslər qismində Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə ilə Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Elnur Məmmədov qatılıblar.

*Hazırladı:*
***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***